# Ömür dastanım

**65-yaşımın tamam olduğu bu ərəfədə "Ömür dastanımı" özüm yazmağı qərəra aldım. Axı bu ömrü məndən gözəl bir kimsə qələmə ala bilməz.**

*Müəllif*



**Fəzail İsmayıl Böyükkişi**

*Bütöv Azərbaycan Ocaqları (BAO) Abbas Lisaninin hüquqlarının Müdafiə Komitəsinin sədri*

(əvvəli ötən sayımızda)

Bütün bunlara baxmayaraq nə qədər çətinliklərlə üzləşsəm də Tanrıma şükürlər etməkdən də və mübarizəmdən də qalmırdım. Hardansa bir yaxşı adam çıxıb məni düşdüyüm bu ağır vəziyyətdən çıxarırdı. Dünyanın sonu nur olduğundan bu yaxşı adamlar haqqında da belə deyirdim:

**Yamanlar yolumu kəssə də tək-tək,**
**Min-min yaxşı insan çatar köməyə.**
**Birdəki düzünü söyləyim gərək,**
**Vurğunam tikanlı yol getməyə.**

Mübariz ruhumdan doğan bu fikri, bu ülvü niyyəti "Son nəfəsim gələnəcən" şeirində belə davam etdirirdim:

**Mübarizəm:**
**Haqq bağıran səsim mənim,**
**Ən sevimli sözüm mənim,**
**Doğruluğum, düzüm mənim,**
**Təpə-dırnağ özüm mənim,**
**Məndən sonra izim mənim,**
**Sən olmusan mübarizəm,**
**Ləyaqətim, bər-bəzəim,**
**Ləkə tutmaz gələcəyim,**
**Sən olmusan mübarizəm,**
**Sən inamım, sən əqidəm,**
**Sən məsləkim, mübarizəm,**
**Sən olmasan, mən olmazdım**
**Şair-həkim mübarizəm.**
**Eşqim, andım, can yanğımsan,**
**Mübarizəm, Mübarizəm!**
**Tanrı nurlu sığnağımsan,**
**Mübarizəm, Mübarizəm!**
**Türk haqqını alanacan,**
**Vətən bütöv olanacan,**
**Bəxt üzümə gülənəcən,**
**Son nəfəsim gələnəcən,**
**Sən mənimsən, sən mənimsən**
**Mübarizəm, Mübarizəm!**
**Tənbəlliyə, ətalətə**
**Sən qənimsən, sən qənimsən**
**Mübarizəm, Mübarizəm!**

Bu şeirimdə dediyim kimi haqq uğrunda mübarizəm öz gözəl nəticələrini verməyə başladı, həm dünyaya anam adda qızım gəldi. Onun dünyaya gəlişi uğurlu oldu. Əvvəlcə böyük oğlum universitetin tarix fakultəsinə qəbul oldu, sonra mən Tibb universitetində elmi fəaliyyətə başladım, həmin dövürdə kiçik oğlum da İqtisad universitetinə qəbul oldu. Qızım birinci sinifə gedəndə həm müəllimim, həm də millət vəkili olan professor İbrahim İsayevin (Allah rəhmət eləsin!) köməyi ilə Lökbatanda torpaq sahəsi ala bildim. O vaxt bir çox dostlarımın köməyi ilə (bu dostlarımın içərisində o vaxt "Respublika" qəzetinin redaktoru olan rəhmətlik professor Teymur Əhmədov və onun rəhmətlik oğlu tələbəlik illərindən dostum alimcərrah Fərhad Əhmədov da var idi) həmin torpaq sahəsində özümə ev tiktirə bildim. Çətinliklərim nisbətən azalsa da yenə də mübariz ruhda şeirlər yaza-yaza onları qəzetlərdə dərc etdirdim və yeni kitablar da çıxartdırdım, bu kitablara vaxtiylə nəşr edilməsi mümkün olmayan şeirlərimi də saldırdım. Belə şeirlərimdən biri də 1974-cü ildə Tibb universitetinə qəbul imtahanı verəndə qələmə aldığım o vaxt dillər əzbəri olan "Xəstələr" poemam idi. O poemamda 17-yaşımdakan Tibb universitetinə qəbul imtahanı verərkən kimyadan element yazanmayanların, fizikadan Toruçelli təcrübəsinə cavab verənməyənlərin, biologiyadan mitoz və meyoz bölünmənin nə olduğunu bilməyənlərin, fizikadan, kimyadan, biologiyadan beş aldığımı görüb yazıq xəstələrin halına acıyaraq belə demişdim:



**...Qəbula on minlər pul tərləmişik,**
**Pulu instituta çox şelləmişik.**
**Yoxsa hədər edib, lap külləmişik,**
**Hesab çəkən quduzlarıq, xəstələr.**

**Leksiyada durakini xoşlarıq,**
**Pokerdə də yüzlükləri tuşlarıq.**
**Vaxtın hədər keçməsini boşlarıq,**
**Anlayın ki, biz tuzlarıq, xəstələr.**

**Bu minvalla diplom alıb atarıq,**
**Ötürərik, sinirərik, yatarıq.**
**O dünyada dadınıza çatarıq,**
**'Kişi'bazlar, 'qız'bazlarıq, xəstələr.**

**Arxamızca deyinərlər axmaqlar,**
**Süfrəmizdə yallananlar yaltaqlar,**
**Qarşımızda diz çökürlər qorxaqlar,**
**Köklü nəhəng palıdlarıq xəstələr.**

**Mafiyamızın çox-çox dərin qatı var,**
**Əcnəbisi, dost-doğması, yadı var.**
**Yurd bölməkdə xan Arazın adı var,**
**Daha qorxunc xan-Arazıq xəstələr.**
**Xəstələr, ay xəstələr,**
**Ay canı yol üstələr.**
**Loğmanımız xəstələr,**
**Sağlamı şikəst elər.**

**Siravimiz xəstələr,**
**Səsinizi pəst elər.**
**Ruh ki uçar bədəndən,**
**Candan gedər istilər.**

**Kimsə bunu bilərsə,**
**Ərşə qalxar tüstülər.**
**Xəstələr, ay xəstələr,**
**Gəlsin yeni dəstələr.**
**Gəlməmişdən əvvəl də**
**Pulumuzu dəst elər.**
**Gəlişiniz xəstələr,**
**Könlümüzü məst elər.**
**Gəlməsəniz xəstələr?..**
**Arvad cana qəsd elər?..**
**Olmasanız bəs bizi?..**
**Hənsı axmaq bəstələr?..**
**Bəstələr, ay bəstələr...**
**Xəstələr, ay xəstələr...**
**Ay canı yol üstələr...**

Bəli, demək olar ki indiki həkimlər ondaki həkimlərdən daha zırrama olduğundan indiki xəstələrin vəziyyəti daha ağırdır.

Əziz oxucular "Ömür dastanımı" ilk dəfə 40 yaşımda "40 yaşımın dastanı", 50 yaşımda "50 yaşımın dastanı", 60 yaşımda "60 yaşımın dastanı" şəklində şeir formasında poemalar şəklində qələmə aldım. Şair taleyimin mənə bəxş etdiyi "40 yaşımın dastanı" poemasına mükafatı aləmin dağılması və erroziyalı kolit xəstəliyi oldu. "50 yaşımın dastanı" poemasında şair taleyimin mənə verdiyi mükafat birinci dərəcəli hipertoniya və ürəyin işemiya xəstəliyi oldu. Şair taleyimin "60 yaşımın dastanı" poemasında mənə verdiyi mükafatsa insult xəstəliyi və onun fəsadları - görmə qabiliyyətimin, eşitmə qabiliyyətimin kəskin pisləşməsi, bədənimin sol tərəfinin keyiməsi və afaziya (tez-tez huşsuzluq və yaddaşşımın itirilməsi) oldu. 60 və 65 yaşım arasında insultun qalıq əlamətləri gücləndiyindən daha çox həkim nəzarətində olduğumdan, əzrayılla daha çox çilik-ağac oynadığımdan bu dəfə 70 yaşımın dastanını yox, "Ömür dastanını" yazmağa başladım. Özü də bu dastamı oxucular üçün maraqlı olsun deyə həm nəsrlə, həm də nəzmlə qələmə aldım. Bu dastanımda nəsrlədə, nəzmlədə öz fikirlərimdən və şeirlərimdən istifadə etməyi qarşıma məqsəd qoymuşam. "Ömür dastanımı" dünyaya göz açdığım babalı-nənəli, atalı-analı (Allah onlara rəhmət eləsin!) günlərimdən başlayaraq ata-baba olduğum bu günlərə qədər qələmə almaq və Tanrının möhləti və mərhəmətiylə başa vurmaq niyyətindəyəm. Tanrım Sizlərə də mənə də yar olsun əziz və istəkli oxucularım!

**Davamı var...**